# AI | DIGITAL MARKETING PROFESSIONAL (DMI PRO)




#GələcəkBurada

/ code academy


Marketinq artıq daha çox etdiyiniz hərəkətlərlə deyil, danışdığınız hekayələrlə əlaqəlidir.
SET QODİN
Amerikalı yazıçı və sahibkar

# Digital Marketing Qlobal Dünyada

Günü-gündən rəqəmsallaşan qlobal dünyada digital marketinq istər lokal, istərsə də qlobal miqyasda uğur əldə etmək istəyən bizneslər və fərdi şəxslər üçün əvəzsiz alətə çevrilib. Onun transformativ gücü coğrafi sərhədləri aşaraq, istənilən auditoriyaya çətinlik çəkmədən çatmağa və daha sürətlə böyüməyə imkan verir.
Bu inkişafın mərkəzində isə artıq süni intellekt texnologiyaları da dayanır. AI alətləri hədəf auditoriyasının davranışını proqnozlaşdırmaqdan tutmuş, fərdiləşdirilmiş məzmun yaratmağa qədər marketinq proseslərini köklü şəkildə dəyişdirir. **Avtomatlaşdırılmış kampaniyalar, AI dəstəkli chatbotlar və proqnozlaşdırıcı analitika brendlərə daha az resursla daha böyük auditoriyaya effektiv şəkildə çatmaq imkanı verir.**

Digital Marketinq İnstitutunun hesabatına görə, digital marketinq mütəxəssisi üçün ən vacib bacarıqlara məlumatların təhlili, məzmunun yaradılması, sosial media marketinqi və axtarış sisteminin optimallaşdırılması (SEO) daxildir. Ənənəvi marketinq metodlarından fərqli olaraq, digital marketinq real vaxt analitikasının aparılmasına və performans göstəricilərini ölçməyə imkan verir.

**Qlobal bazarda**

**23.000**
**aylıq vakansiya sayı**

**Bazar həcmi**
2026-cı ilə qədər

**807**
**milyard dollar olacaq**

**Reklam xərcləri**
2026-cı ilə qədər

**455.3**
**milyard dollar olacaq**

# Digital Marketing Code Academy-də

Beynəlxalq Sertifikat

## "Certified Digital Marketing Professional"

Digital Marketing Institute™
Approved Partner

Digital Marketinq tədris proqramı Code Academy ilə İrlandiya mərkəzli Digital Marketing İnstitute-un eksklüziv partnyorluğu əsasında tədris edilir. Partnyorluq nəticəsində Code Academy-nin Digital Marketinq tədris proqramı beynəlxalq standarta uyğun olaraq hazırlanmışdır və bu proqramdan məzun olan tələbələr ödənişsiz şəkildə beynəlxalq **"Certified Digital Marketing Professional"** imtahanına daxil olaraq bu sertifikatı əldə etmək imkanına sahib olurlar.

**gross əmək haqqı**
**15.600** ₼/il
**Junior Specialist**

**gross əmək haqqı**
**30.500** ₼/il
**Lead Specialist**

**gross əmək haqqı**
**58.400** ₼/il
**Digital Marketing Manager**

Qeyd olunan əmək haqqıları tam ştat və remote iş imkanları nəzərə alınaraq hesablanıb.


”
Ən yaxşı ideyalar zarafatla gəlir. Düşüncələrinizi mümkün olduğu qədər yumoristik edin.
DEVİD OQİLVİ
İngilis reklam maqnatı

# Tədris Proqram

## Süni intellekt dövründə digital marketinq 1

Bu modul süni intellekt dövründə digital marketinqin əsas prinsiplərini və məqsədlərini əhatə edir. Modul sizə aydın, həyata keçirilə bilən biznes hədəflərini müəyyənləşdirmək, digital araşdırma apararaq auditoriyanız və sektorunuz haqqında məlumat əldə etmək, müştərilərinizlə effektiv kommunikasiya yaradaraq tam inteqrasiya olunmuş 360 dərəcə digital marketinq kampaniyasının təməllərini hazırlamaq imkanı verəcəkdir.

## Kontent Marketinqi 2

Kontent marketinqin əsas prinsiplərini əhatə edir. Kontent marketinq strategiyasını yaratmaq, planlaşdırmaq və həyata keçirmək üçün tələb olunan bilik və bacarıqları aşılayır. Kontentin yaradılması, təkmilləşdirilməsi, planlaşdırma vasitələri və təşviq üsullarından istifadə edərək onun dəyərini artırmağı öyrədən istiqamətləri əhatə edir.

## SMM – Sosial Media Marketinqi 3

Bu modul Digital Marketing üçün əsas sosial media platformalarını əhatə edərək sosial medianın biznes məqsədli necə istifadə olunacağını göstərir. Sosial media auditoriyasını böyütmək və cəlb etmək üçün ən yaxşı üsulları və təcrübələri izah edir. Həmçinin əsas sosial media platformalarında effektiv ödənişli reklam kampaniyalarının necə qurulacağını öyrədir.

## Vebsaytın hazırlanması və optimizasiyası 4

Modul veb saytın hazırlanması, effektiv dizaynı və optimallaşdırılması üzrə əsas anlayışları əhatə edir. Bu sizə WordPress istifadə edərək sadə, yaxşı tərtib edilmiş və optimallaşdırılmış veb sayt qurmaq imkanı verəcəkdir. Modul veb saytların fəaliyyətini izləmək və nəticələri ölçmək üçün statistikadan necə istifadə olunacağını da öyrədir.

## SEO – Axtarış Motoru Optimizasiyası

5

Bu modul SEO-nun əsasları və axtarış motorlarının necə işlədiyindən bəhs edir. Veb sayta ziyarətçi gətirən SEO düzgün kontent planını qurmaq üçün açar söz və rəqib araşdırmalarından necə istifadə olunacağını izah edir. Həmçinin real veb saytın Google-da indekslənməsi prosesi, Google Analytics və Google Search Console ilə nəticələrin ölçülməsi və analizi öyrədilir.

## Paid Search & Display reklamları

6

Modul Paid Search, PPC kampaniyaları, Google Ads və Display reklamlar üzrə əsas məqamları əhatə edir. Google Ads platformasının effektiv istifadəsi və reklam kampaniyalarının performansının artırılması üzrə praktiki biliklər əldə edəcəksiniz. Əlavə olaraq, digər Google platformalardan istifadə edərək kampaniyaların performansını ölçməyi və hesabat verməyi əhatə edir.

## Veb Analitik

7

Google Analytics 4-un (GA4) necə qurulduğunu, veb saytın trafiki və izləyiciləri haqqında məlumatların əldə edilməsi yollarını izah edir. Kampaniyaları izləmək və təhlil etmək üçün GA4 hesabatlarından və xüsusiyyətlərindən istifadə yolları barədə ətraflı məlumat verir.

## E-Mail Marketinqi

8

Bu modul seqmentləşdirmə, şəxsiləşdirmə, məlumatların qorunması ilə bağlı qanunvericilikdən bəhs edir. Modul əsas e-mail marketinq vasitələri və üsulları ilə yanaşı, abunə olanların siyahısı və e-mail dizaynının ən yaxşı təcrübələrini araşdırır. E-mail-in açılması, klik sayı və marketinqin avtomatlaşdırılması vasitələri ilə e-mail kampaniyasını yaratmaq, test etmək və optimallaşdırmaq yollarını əhatə edir.

## Digital marketinq mütəxəssisləri üçün peşəkar bacarıqlar

9

Bu modul layihə idarəetməsi, agile düşüncə, effektiv vaxt idarəetməsi, məlumatların düzgün şəkildə analiz və vizuallaşdırılması, kreativ düşüncə kimi mövzuları öyrədir. İştirakçılara, iş proseslərini daha səmərəli və effektiv şəkildə idarə etmək üçün əsas prinsipləri və təcrübəni təmin edir. Layihə idarəetməsində planlama, təşkilat, monitorinq və kommunikasiya kimi əsas amilləri vurğulayır.

## Digital Marketinq Strategiyası

10

Effektiv digital marketing strategiyasının əsas komponentlərini müəyyənləşdirir. Effektiv büdcə planının hazırlanması və ROI-nin ölçülməsi yollarını aydınlaşdırır. Kanal seçimi, düzgün mesaj, dəqiq hədəflər və ölçülə bilən KPI-ların necə qurulacağını əhatə edir. Modul ümumi plan, ödənişli media planı, kampaniyanın fəaliyyət planı və digital marketing strategiyasının həyata keçirilməsini izah etməklə başa çatır.

# Hansı bacarıqlara sahib olacaqsan?

## SMM (Sosial Media Marketinqi)

Bizneslər üçün uğurlu sosial media strategiyasının hazırlanması və tətbiqi. Həmçinin, sosial media kanalları vasitəsilə effektiv reklam kommunikasiyasının qurulması. Müştəri profilinin yaradılması və bunun əsasında effektiv kontent planın qurulması.

## Google reklamları

Məhsul və xidmətlərin həm google axtarış, həm display, həm də youtube-da hədəf auditoriyasına uyğun şəkildə yerləşdirilməsi, reklam nəticələrinin effektivliyinin ölçülməsi, hesabatlaırn hazırlanması və təqdim olunması

## E-mail marketinq

Effektiv e-mail marketinq strategiyasının qurulması, real ESP-lər üzərində praktiki təcrübə, nəticələrin izlənilməsi və ölçülməsi

## Meta Reklamları

Məhsul və xidmətlərin Meta platformalarında (Facebook, Instagram) hədəf auditoriyasına uyğun şəkildə yerləşdirilməsi, reklam kampaniyalarının yaradılması və idarə olunması, reklam nəticələrinin effektivliyinin ölçülməsi, hesabatların hazırlanması və təqdim olunması.

## SEO (Search Engine Optimization)

Biznesləri google axtarış nəticələrində ilk sıralara yüksəldin. Effektiv açar sözlərin müəyyən olunması və bu sözlər üzrə saytların optimallaşdırılaraq orqanik trafik axınının təmin edilməsi

## Veb analitika

Veb saytınızda analitik sistemlərin (google analytics GA4) düzgün şəkildə qurulması, hesabatların formalaşdırılması, məlumatların toplanması, təhlili və bu məlumatlar əsasında biznes üçün əhəmiyyətli qərarların verilməsi

## Veb optimizasiya

Veb saytda baş verən proseslərin detallı təhlili və uyğun alətlərlə müştəri davranışlarının analizi. A/B test məntiqinin qurulması və nəticələr əsasında effektiv qərar vermə təcrübəsi.

## Strategiya

Digital marketinq strategiyasının qurulması və tətbiqi, effektiv media və büdcə planlarının tərtibi, əsas metriklər üzrə (CPC, CPA, CPM, CPL və s.) düzgün KPI-ların müəyyən olunması.

## AI alətlərindən istifadə

Manus, Claude, ChatGPT kimi süni intellekt alətlərinin köməyilə təqdimatlar hazırlaya biləcək, analizlər aparacaq, araşdırma edəcək və skill-lər yarada biləcəksən.

# DIGITAL MARKETİNQƏ MARAĞI OLAN VƏ KARYERASINI BU SAHƏDƏ QURMAQ İSTƏYƏN HƏR KƏS İŞTİRAK EDƏ BİLƏR.



Kontent Digital Marketing-in atomik hissəsi hesab edilir.

# REBEKKA LİB

Digital Marketing konsultantı

# Code Academy Tələbəsi Olmaq

Code Academy-də tədris alan hər bir tələbə sahə üzrə bilik və bacarıqlarını inkişaf etdirməklə yanaşı, eyni zamanda bu sahənin peşəkarları ilə bir mühitdə olmaq imkanı qazanacaq, 8000 nəfərdən çox tələbəsi olan Code Academy ailəsinin bir parçasına çevrilərək, yeni dünyanın mütəxəssisləri ilə davamlı ünsiyyətdə olacaq və Open Space ərazisindən şəxsi və peşəkar inkişafı üçün istifadə edə biləcəkdir.

**+10.000**
ümumi tələbə sayı

**116**
pedaqoji heyət

**12saat / 7gün**
"Open Space"-dən istifadə



## Məzunlarımızın işlədiyi top şirkətlər

PAŞA Bank, birbank, kontakt, Azercell, Google, Bolt, azərlotereya, AZINTELECOM, vibe&wave, asan xidmət, bakcell, ABB, PAŞA Holding, amazon.com, Baku Electronics

# Tələbələrin Uğur hekayələri



**Hürü İsmayılova**
Digital Marketer
**Google**

Code Academy-də aldığım biliklər iş prosesini mənim üçün asanlaşdırdı və digital marketing sahəsində istifadə oluna biləcək alətlər haqqında yeni məlumatlar verdi.



**Könül Həsənova**
Performance Marketing Specialist
**Bolt, Tallin**

Code Academy vasitəsilə digital marketing sahəsi ilə tanış olmağım "hansı sahə üzrə karyera qurmaq istəyirəm?" sualına dəqiq cavab tapmağıma səbəb oldu.



**Şəhla Orucova**
Senior Digital Marketing Specialist
**ABB**

Code Academy-də təhsil almaq qərarını verdiyimdə mənim üçün bu qədər vacib bir yer olacağını düşünməmişdim. Çünki zamanla akademiya, sadəcə, gəlib tədris alıb getdiyiniz bir yerdən, bütün gününüzü keçirdiyiniz doğma bir məkana çevrilir. Bu da öz növbəsində yeni dostluqlar, əlaqələr yaradır.



**Emiliya Hacıyeva**
Digital Marketing Specialist
**Kontakt Home**

Code Academy-də Digital Marketing üzrə təhsil almaq qərarını verəndə bunun həm karyeramda, həm də şəxsi həyatımda bu qədər vacib yer tutacağını düşünmürdüm. Zaman keçdikcə akademiya mənim üçün sadəcə gəlib dərs alıb getdiyim bir məkan deyil, günümün böyük hissəsini keçirdiyim doğma bir mühitə çevrildi.



**Səma Səfərli**
Digital Marketing Specialist
**FINCA Azerbaijan**

Code Academy-nin ab-havası başqa bir şeydir. İçəri girən kimi hiss edirsən ki, bu adi bir məkan deyil. Elə bil Azərbaycanda yox, dünyanın hər hansı bir texnologiya mərkəzindəsən, o enerji, o peşəkarlıq, o həvəs hər tərəfdən hiss olunur. Hamı bir-birinə dəstək verir, heç kim arxada qalmır.



**Lalə Babaşova**
Team Chapter Lead
**FMG**

Digital marketinqin sərhədsiz dünyasını kəşf etmək, bazarda olan böyük markaların hədəflərinin reallaşmasının bir parçası olmaq, hər gün yenidən yaşadığım həyəcanlı təcrübədir. Bu bənzərsiz təcrübədə ən böyük və ilk yol yoldaşım Code Academy olduğu üçün şanslıyam.

”

Kontent hazırlayarkən
auditoriya üçün nəyin
yararlı olduğuna
əmin olanadək özünə
”başqa nə?” sualını ver.

# ANNA HENDLİ

Digital Marketing spiker



# Tədris proqramı cədvəli

| Həftəiçi: Bazar ertəsi - Cümə (5 gün) | |
|---|---|
| **Səhər:** 09:00 - 12:45 | 9 həftə |
| **Günorta:** 14:00 - 17:45 | 9 həftə |
| **Axşam:** 19:00 - 21:45 | 13 həftə |

| Həftəsonu: Şənbə, Bazar (2 gün) | |
|---|---|
| **Səhər:** 10:00 - 14:45 | 15 həftə |
| **Günorta:** 15:30 - 20:15 | 15 həftə |

* Tədris proqramı lab saatları daxil ümumilikdə 150 saat davam edir.

”

Optimizasiyanı konversiyaya görə deyil, gəlirlərinizə görə edin.

# NEİL PATEL

Marketinq konsultantı






/ code academy

Nizami küç. 203B, AF Business House, 2-ci mərtəbə
+99412 310 0113 / +99450 444 2633
info@code.edu.az / www.code.edu.az